Ali Rəhbər həzrəti
Ayətullah Xameneinin

# İnsan Hüquqları Məsələlərinə Baxışı



İran İslam Respublikasının Naxçıvandakı Baş
Konsulluğunun Mədəniyyət Attaşeliyi

**Kitabın adı: Ali Rəhbər həzrəti Ayətullah Xameneinin İnsan Hüquqları Məsələlərinə Baxışı**

**Yazıçı: Əkrəm Fəzlixani**

**Tərtibatçı: Əbülfəzl Rəbii**

**Çap: 2021**

**E_BOOK**

**Dizayner: Əbülfəzl Rəbii**

# Mündəricat

Giriş ………………………………………………………………………………….5

İslam və qərbin nəzərində insan hüquqları………………………….……………..9

Fələstin məsələsi……………………………………………………………………..13

Azlıqların hüquqları………………………………………………………………...17

Qadın hüquqları məsələsi………………………………………...……….…...20

Son Söz………………………………………………………………………………….24

# Ali Rəhbər həzrəti Ayətullah Xameneinin İnsan Hüquqları Məsələlərinə Baxışı

## Giriş

İnsan hüquqlarının və insan ləyaqətinin qorunması hər bir cəmiyyətin əsas və düşündürücü məsələlərindən biridir. Fərqli ölkələrin dövlət başçıları zahirdə olsa belə, bu məsələlər barədə fikir bildirirlər.

Ali Rəhbər də müxtəlif mərasimlər zamanı olan çıxışlarında və müxtəlif bəyanatlarında bu vacib mövzu ilə bağlı fikirlərini dilə gətirərək, dünyaya çatdırıblar.

Bu kitabda həzrəti Ayətullah Xameneinin insan hüquqlarının ən böyük saxta iddiaçısı olan Amerikanın insan hüquqlarını pozması ilə əlaqədar olan bəzi məsələlər barədə bəyanat və nəzəriyyələri qeyd olunmaqdadır.

İnsan hüquqları humanitar və dini düşüncədə dərin və kök salmış bir anlayışdır. İnsan hüquqları dinindən, mədəniyyətindən, dilindən, irqindən, milliyyətindən,

vəzifəsindən, qohumluğundan, etnik mənsubiyyətindən asılı olmayaraq insanlara aid olunan hüquqlardır. Əslində bəşər sivilizasiyasının tarixi peyğəmbərlərin, filosofların, şərq və qərbin dahi mütəfəkkirlərinin insan ləyaqətinin yüksəldilməsində, onun hüquqlarının və əsas azadlıqlarının qorunması sahəsində səylərinin göstəricisidir. İnsan hüquqları məsələləri İndiki dövrdə də aktual mövzulardan biridir. Bu hüquqlar insanın ən təbii haqqı sayılan yaşamaq hüququ ilə başlayaraq, söz azadlığı, yazı və düşüncə azadlığı kimi bəşəriyyətin kamilliyi və ucaldılmasına səbəb olan mənəvi hüquqlara doğru irəliləyir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də fərdlərin insan olmaqla əldə etdikləri hüquqlar təsdiq edilmişdir. Bunun təməlində isə bərabərlik prinsipi dayanmaqdadır. Çünki bütün insanlar birbirləri ilə eyni insani statusa sahibdirlər.

Buna görə də, insanlar bu hüquqların heç birindən məhrum edilə bilməzlər. İnsanlar əzəmət və şövkətli olmaqları səbəbindən təqdirə layiqdirlər. Rəhmət və şəfqət dini olan İslam mövcud olduğu andan etibarən ilahi nöqteyi-nəzərdən insanın vəziyyətinin yaxşılaşdırılmasına, insan haqlarının, ləyaqətinin və dəyərlərinin qorunmasına çalışmış və bu məsələyə xüsusi diqqət yetirmişdir. İslam həmişə əxlaqi dəyərləri təkmilləşdirməyə çalışmışdır. Bu səbəbdən də, Quran və hədis mənbələrindəki çox zəngin dəlillər bunu təsdiqləyir. Bu kitabda Ali Rəhbərin insan hüquqları ilə bağlı fikirlərini araşdırmağa və onun müxtəlif mövzulardakı fikirlərini nəzərdən keçirməyə cəhd edilmişir.

Həzrəti Ayətullah Xamenei hesab edirlər ki, ABŞ insan haqlarını ən çox pozan ölkədir və insan hüquqlarının himayədarı olduğu iddiasından imtina etməlidir. Bu barədə belə buyururlar: “Amerikalıların insan hüquqları sözünü dillərinə gətirməyə haqqı yoxdur. Quantanamo və Əbu Qureyb həbsxanaları kimi ləkələr ilə damğalanan, İraqda,

Əfqanıstanda və digər yerlərdə yaşayış sahələrini bombalayan ölkənin özü, insan hüquqları pozuntularının rəmzidir. Onlar yenə də utanmadan insan hüquqlarından danışırlar. Ölkələri terrorizmi dəstəkləməkdə günahlandırırlar! Terroristlər isə Amerika qanadlarının altında böyüyüblər. Əfqanıstanda Taliban amerikalıların qanadları altında yaradıldı və böyüdü. Bu gün ən mənfur terrorçular olan münafiqlər bunların qanadlarının altındadır. Terrorizm Amerikanın vasitəsidir; Onlar isə digərlərini terrorizmin tərəfdarı olmaqda günahlandırırlar! Terrorizm dedikdə isə, fədakar mərd və cəsarətli fələstinlilərin mübarizələrini nəzərdə tuturlar. Onlar İran xalqının Fələstin xalqına edilən zülmə şərik olmağını gözləyirlər! Bu isə onların axmaq gözləntilərindən biridir.

Bu məqalədə, ilk öncə İslam və qərb söyləmələrindəki insan haqları arasındakı fərqdən bəhs olunur. Daha sonra qadınların, azlıqların hüquqlarının pozulması halları və Fələstin məsələsi ilə əlaqədar fikirləri barədə bəhs olunmaqdadır.

# İslam və qərbin nəzərində insan hüquqları

## İslam və qərbin nəzərində insan hüquqları

Keçmişdə modernizm mənəvi və ilahi düşüncədən ayrı hesab olunurdu. Qərb alimləri və mütəfəkkirləri bu iki anlayışı bir-birinə zidd olaraq qəbul edirdilər. Onlar üçün dini anlayış sayılan hər şey mürtəce hesab olunurdu. Ancaq bu gün sosial ədalət və insan hüquqları İslamın işığında qərbdən daha yaxşıdır. Ali Rəhbərin də buyurduğu kimi: "İnsan azadlığının tərəfdarı olan İslam dini, ədaləti müdafiə edir və bütün dünyada müstəmləkə sisteminin aradan qaldırılmasının, istismarçılığın ləğv edilməsinin tərəfdarıdır. Yəni, dünyada istismar edən ölkə olmasın. Bu İslam dini sisteminin anlayışıdır.

Bu sizin əlinizdə olan həmin bayraqdır. Sizin qarşı tərəfinizdəkilər isə, zülmkarlar, təkəbbürlü və eqoist şəxslərdirlər. İqtisadi güclərinə güvənən inhisarçı qüvvələr dünyada daim var olublar. Bugün də mövcuddurlar.

Onlar keçmişdə aşkar şəkildə öz alçaq həqiqətlərini nümayiş etdiriblər. Bugün isə, yenə də, müxtəlif məsələlər barədə, o cümlədən də, insan hüquqları, zorakılıqla mübarizə və s. barədə riyakar və münafiqcəsinə danışırlar. Ancaq millətlərin iti gözləri hər şeyi birbirindən seçə bilir.

İnsan hüquqları İslam ədaləti və İslam qaydaları kölgəsində həyata keçirilir. Məhkəmə sistemində insan hüquqları qərbin bu gün təklif etdiyi saxta standart və normalarla deyil, aydın olmalıdır. Daha doğrusu, İslamın standartlarına görə, tam dəqiqlik məsələsidir. Ola bilsin ki, çox az hallarda cəmiyyətimizin müəyyən guşələrində, fərdlər və ya qurumlar tərəfindən İslam nəzərində həqiqi insan hüquqları kimi tanınan hallar

pozulmuş olsun. İnsan hüquqlarının müdafiəsi məhkəmə sistemi tərəfindən həyata keçirilməlidir. İslamda hətta cinayətkarlara da hüquqlar verir. Edam ediləcək adamı belə heç kimin təhqir etmək hüququ yoxdur. Uca Allahın insanlara verdiyi hüquqlar, bütün hallarda və bütün şəxslərə münasibətdə tam şəkildə yerinə yetirilməlidir.

İnsan hüquqları İslam dininin və İslam hökumətinin kölgəsində təmin edilir. İslam dini buyurur: Hər hansı bir zalım hökumətin rəhbərliyini rədd edin. Onun kriteriyalarını qəbul edib, xalq onu seçməyincə, heç kimin xalq üzərində rəhbərlik etmək hüququ yoxdur. Dünyadakı düşmənlərimizin İnqilabımızla bağlı olan hədəfləri İslamla mübarizə aparmaqdır. Çünki İslam dini talançıların işlərinin qarşısının alınmasına səbəb kimi qəbul edildiyindən, onlar İslam dininə qarşı çıxır və onu insan haqlarına zidd elan edirlər. Məqsədləri isə, İslamı gözdən salmaqdır. Bu isə, İslamın insan hüquqlarının flaqmanı olduğu bir vaxtda görülür.

# Fələstin məsələsi

## Fələstin məsələsi

Qərb və xüsusilə də ABŞ tərəfindən insan hüquqları mövzusunu gündəmə gətirmək xalqı aldatmaq üçün bir vasitədir. Amerika Birləşmiş Ştatları bu vasitədən fərqli ölkələrdə ictimai fikrə təsir göstərmək və insan haqlarına qarşı davranışını əsaslandırmaq üçün istifadə edir. İnsan haqlarının ən açıq şəkildə pozulmalarından biri də, Fələstin məsələsində İsrailə dəstək verməkdir. Həzrəti Ayətullah Xamenei  müxtəlif vaxtlarda dəfələrlə bu məsələyə işarə etdmiş və ABŞ-ı Fələstindəki qeyri-insani vəhşiliyin əsas səbəbkarı hesab etmişdir. aşağıda bu çıxışlardan bəzi nümunələri verilmişdir:

ABŞ bu gün Fələstində baş verən bütün cinayətlərə şərikdir.

Fələstinin rəsmi işğalından altmış beş il keçmiş olsa da, məzlum millətə qarşı edilən zülm gündəlik olaraq davam etməkdədir. Evlər dağıdıldı. Günahsız insanları həbs edildi.

Uşaqlar atalarından və analarından ayırıldı. Həbsxanalar günahsız yerə həbs olunan çoxlu sayda insanlarla dolduruldu. Qərbin hakim güclərinin bu cinayətkarları var gücü ilə dəstəkləməsi də kədərləndiricidir. Bu, günümüzdə açıq-aşkar zülmün birləşməsindən ibarət olan bəlalardan biridir. İnsan hüquqları, demokratiya və s. kimi gözəl və rəngli şüarların tərəfdarları olduğunu iddia edənlər onlarla, hətta yüzlərlə zülümlərə göz yumurlar. Həqiqətdə onlar cinayətkarları dəstəkləyirlər.

İşğal olunmuş Fələstin ərazilərinin içərisində ən kiçik bir hərəkət olduqda, ABŞ prezidenti dərhal "Qara Ev" dən çıxaraq danışır. Buna görə ki, onlar işləri əvvəlcədən öz itləri olan İsrail ilə koordinasiya edirlər.

Fələstinli gənclərin, uşaqların, yaşlı kişilərin, qadınların və silahsız insanların öldürülməsi gündəlik hadisəyə çevrilib. Bu qəribə bir şeydir. Bu, həqiqətən tarixi bir hadisədir. Bunlar tarixdə qalacaq.

Bir və ya iki yaşında uşağın öldürüldüyü emosional mənzərəni görən hansı bir insan rahat yata bilər?

Kim bir xalqa məxsus olan, əsrlər boyunca əcdadlarının sümükləri basdırılan ərazilərin, evlərin, prospektlərin, küçə və şəhərlərin mühasirə edildiyini görüb təsirlənmir?

Fələstin xalqının ağrıları bizim də ağrı və əzablarımızdır.

Bu gün Fələstin xalqı fəryad edərək müsəlmanları səsləyir!

Bu fəryadın cavabı hər bir İslam dövlətinin bşaçısı üçün məcburi və zəruridir. Uca Allah onları məzəmmət edəcəkdir.

Bu nümunələr göstərir ki, Ali Rəhbər Fələstində baş verənləri qətiyyətlə və açıq şəkildə insan hüquqlarının pozulmasının bariz nümunəsi hesab edir və Amerikanı bu işin ən mühüm səbəbi kimi görür.

# Azlıqların hüquqları

## Azlıqların hüquqları

İnsanların qanun qarşısında bərabərliyi, bütün hüquq sistemləri tərəfindən qeyd olunmuş və qəbul edilmiş bir məsələdir. Birləşmiş Millətlər Təşkilatı və beynəlxalq hüququn meydana gəlməsi dövründə insanların bərabərliyi, ayrı-seçkiliyə yol verilməməsi prinsipi beynəlxalq hüququn iki əsas sütunu olaraq qəbul edildi və bunlar beynəlxalq insan hüquqlarının təkamül və inkişafına təsir etdi.

1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsi təsdiq edildi. Bu bəyannamədə bütün insanların bərabərliyi və azadlığı məsələsi, həmçinin ayrı-seçkiliyin qadağan edilməsi məsələləri qeyd olunurdu. Ancaq təəssüf ki, praktikada görülənlər bəyannamələrdə və qanunlarda yer alan müddəa və

öhdəliklərə ziddir. Azlıqların hüquqlarının pozulması və irqi ayrıseçkilik isə ABŞ-da xüsusi olaraq yayılmışdır.

Ali Məqamlı Rəhbər qərb ölkələrinin azlıqların hüquqlarını pozduğunu bildirərək demişdir: “Müsəlman azlıqların özlərinin insan hüquqlarının qoruyucusu olduğunu iddia edən bir çox Avropa ölkələrində hətta dini və etnik motivlərdən də istifadə edilməklə təzyiqə, ayrıseçkiliyə və təhqirə məruz qaldığı bir zamanda, bu məzlum insanların hüquqlarının pozulmasına belə işarə etmədən, səssizcə və öz əməlləri ilə müsəlmanlara tətbiq olunan zülmün möhürünü təsdiqlədi. Bəzi Asiya ölkələrində bir çox müsəlman azlıqlar eyni aqibəti yaşayır.

# Qadın hüquqları məsələsi

## Qadın hüquqları məsələsi

Ali Rəhbər qərbin qadınlara münasibətini yanlış, alçaldıcı, meşə idarəçiliyinə, vəhşiliyə, şəhvətpərəstiyə və qadınların təhqirinə əsaslanan sistem olaraq qiymətləndirib, bunu insan hüquqlarının pozulmasının bir nümunəsi hesab edərək dedilər: "İslami üsul və İran İslam Respublikası rejiminin qadınlara münasibəti ehtiramlı, iftixarlı, məqsədəuyğun, rasional və insanlığın mənafeyi baxımından faydalıdır. Qərblilərin qadınlarla əlaqələri isə insan haqlarına ziddir. Qərblilər təbliğat və mübahisələrlə bizim doğru yola getməyimizə maneə olmağa çalışırlar. Ancaq İranın inanclı, inqilabi və imanlı müsəlman qadınları İslam hökmləri və vəzifələrini yerinə yetirməklə imperialist təbliğatçıların ağzını yumacaqlar.

Həmçinin Ali Rəhbər buyurur: “ABŞ-ın keçmiş prezidenti Cimi Karter insan hüquqlarının pozulmasına və qadınlara qarşı dəhşətli təcavüzlər barədə olan “Fəaliyyətə çağırış” adlı kitabını nəşr etdirdi.

Cimi Karter bu barədə yazır: “ABŞ-da hər il yüz min qız kölə kimi satılır. Bir fahişəxana sahibi, hər hansı Latın Amerikası və ya Afrika ölkəsindən olan bir qızı min dollara ala bilər. O həmçinin Kollec şəhərciklərində baş verən təcavüzlərə də işarə edərək, qeyd edir: “Bu barədə olan hər iyirmi beş hesabatdan yalnız biri bildirilir. Orduda olan cinsi təcavüzkarların yalnız yüzdə biri hərbi mühakimə olunur. İnsanın ağlamağı gəlir! Bunların çoxunu qəzetlərdə görürsünüz. Mən də görürəm. Mən heç vaxt bunlara istinad etmirəm, lakin bu reallıqdır. Nə də olsa, Cimi Karter məşhur bir insandır və bu onun kitabıdır. Bu dünya nə vəziyyətdədir?! Bu qadınlara qarşı olan ayrı seçkilikdir.

O həmçinin qeyd edir: “İnanırıq ki, hər hansı bir sağlam insan cəmiyyətindəki qadınlar, elmi və sosial tərəqqi, dünyanın quruluşu və idarəedilməsi məsələlərində öz vəzifələrini yerinə yetirməyə qadirdir olmalıdırlar. Buna məsələdə kişi ilə qadın arasında heç bir fərq yoxdur.

# Son Söz

## Son Söz

İnsan hüquqları və ləyaqətinin qorunması dünənin və bu günün cəmiyyətlərin ən aktual və gündəmdə olan məsələlərindən biri hesab olunur. Əslində, kütləvi qətllərin, irqi ayrıseçkiliyin, yoxsulluğun, insan alveri və s. nin mövcudluğu insan cəmiyyətlərinin daim insan haqlarının pozulmasına məruz qaldıqlarını göstərir.

Nəzər saldıqda, Ümumdünya İnsan Haqları Bəyannaməsinin təsdiqlənməsindən bu yana yarım əsr keçməsinə rəğmən, hökumətlər və cəmiyyətlərin taleyini idarə edən dövlətlər tərəfindən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Haqları Bəyannaməsinin müddəalarını həyata keçirməkdə əldə etdiyi nəticələr zəif olmuşdur. Onun köklərini buradan tapmalıyıq. İnsan haqlarının ümumi peyğəmbərlik təlimlərinə və bu müddəaların müdrikliyinə dair toplu nəzəriyyələrə uyğun olaraq dizayn edilməsinə

baxmayaraq, bunu tövhid və kəramətin dirçəldilməsinə, əxlaq və inamın möhkəmləndirilməsinə əsaslandırmadılar. Buna görə də, hətta bu bəyannaməni imzalayan hökumət və dövlətlərin özləri, bəzən isə irqi və etnik təəssübkeşlikdən əziyyət çəkən millətlər onun müddəalarını pozurlar.

Buna misal olaraq işğal olunmuş Fələstində, Cənubi Livanda, Bosniya Herseqovinada, Kosovoda, keçmiş Yuqoslaviyada, o cümlədən də, irqçi israilli və serblərin nümunəsində görürük. Ölkənin Ali Rəhbərinin də bildirdiyi kimi, saxta demokratiya, liberalizm və insan haqları iddiaçısı olan Amerika Birləşmiş Ştatlarının özü ən çox insan hüquqlarını pozan ölkədir. Dünyadakı qadınların və uşaqların hüquqlarını ayaqlar altına salır.

Buna görə də, ABŞ-ın mənafeləri tələb etdiyi zaman, insan hüquqlarını öz mənafelərini həyata keçirmək üçün bir vasitə olaraq istifadə etməklə, özünün qanunsuz hərəkətlərinə qanuni haqq qazandırır.